# Uşaq hüquqlarının öyrənilməsinin müasir şəxsiyyətyönlü təhsildə yeri

**Səbinə Muradova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** sebine_muradova@mail.ru

**Rəyçilər:** ped.ü.e.d., prof. A.N. Rəhimov,
ped.ü.f.d., dos. P.M. Həsənova

**Açar sözlər:** təhsil islahatları, bacarıq və vərdişlər, uşaqlar, keyfiyyətli təhsil, uşaq problemləri

**Ключевые слова:** образовательные реформы, умение и навыки, дети, качественное образование, детские проблемы

**Key words:** problems of rights of education reforms, ability and habits, childrens, qualitative education, children problems

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra müstəqil dövlətimizi idarə etməyə qadir əsl vətəndaşlar tərbiyə etmək, yetişdirmək lazım gəldi. Buna əsasən də müstəqil düşüncə tərzinə malik olan, ölkəmizi dünyanın istənilən yerində təmsil etməyi bacaran, yüksək intellektli, dünyagörüşlü vətəndaş yetişdirmək dövrümüzün aktual tələblərindəndir. Müstəqillik əldə etdiyimiz gündən təhsilin inkişafına xüsusi diqqət və qayğı yetirilməyə başlanıldı. Proqram və dərsliklərdə ciddi keyfiyyət dəyişikliyi yarandı və dünya təhsilinə inteqrasiya ön plana çəkildi. Bu gün də uğurla və yaradıcılıqla davam etdirilən kurikulum islahatı özünün ilk uğurlu nəticələrini verməkdədir. Aparılan islahatlar nəticəsində təhsilimiz şəxsiyyətyönlü istiqamət aldı və dövlətimiz təhsilin məzmununda dəyişikliklər etməyi labüd hesab etdi. Şəxsiyyətyönlü təhsilin əsas mahiyyəti şəxsiyyət formalaşdırmaq, inkişafetdirici təlim mühiti yaratmaq, əməkdaşlıq, demokratik, humanistlik prinsiplərinə əsaslanan təhsil mühiti yaratmaqdır.

Milli kurikulumda şagirdin bir şəxsiyyət kimi formalaşması üçün lazım olan təlim şəraitinin yaradılması əsas məsələ kimi qarşıda durur. Şagirdin müstəqil həyata tam sərbəst düşünən və fəaliyyət göstərən şəxsiyyət kimi hazırlamaq zamanın əsas tələbidir. Bütün bu proseslər müəllimin də üzərinə müəyyən vəzifələr qoyur.

Şəxsiyyətin formalaşdırmağın digər əsas mövqeyi isə müstəqil düşüncə tərzinə sahib olmağı bacaran insanın həm də öz hüququnu bilməsidir. İnsan hüquqlarının öyrədilməsi şagirdlərin şəxsiyyətinə və ləyaqətinə hörmət olunmasına, istək və arzularına diqqət göstərilməsinə, onları öz qüvvələrinə, təbii imkanlarına, bilik-bacarıqlarına, gələcəkdə cəmiyyət üçün yararlı olmalarına inam yaradılmasına, müstəqillik, prinsipiallıq və qətiyyətlilik kimi xüsusiyyətlərinin formalaşdırılmasına zəmin yaradır.

1990-cı il 2 sentyabrda 20 dövlət tərəfindən imzalanmış "Uşaq Hüquqları Konvensiyası"na Azərbaycan Respublikası 1992-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə qoşulmuşdur. Konvensiyaya görə uşağın fiziki, əqli və sosial inkişaf hüquqları vardır. Uşaq hüquqları hər bir dövlətin xüsusi diqqət ayırdığı sahədir. Çünki uşaqların hər biri dövlətin gələcəyidir. Azərbaycan Respublikasında uşaq hüquqları dövlətimizin diqqət mərkəzindədir. Ölkəmizdə bütün uşaqlar bərabər hüquqa malikdirlər. Konvensiyada uşaqlara öz baxış və fikirlərini azad ifadə etmək, təhsil almaq, dini yığıncaqlarda iştirak etmək, dövlət

tərəfindən müdafiə olunmaq, sosial təminat imtiyazları və s. hüquqları verilmişdir.

Yaşamaq və inkişaf etmək hüququ Konvensiyada göstərilən əsas prinsiplərdəndir (6, 4). Hər bir uşağın ailədə valideynlərlə birgə yaşamaq, onlardan qayğı görmək hüququ vardır. Qanunvericiliklə nəzərdə tutulmuş hallardan başqa valideynlərin istəyinə zidd olaraq uşağı onlardan ayırmaq qadağandır. İnsan xarakterinin formalaşmasında, bir şəxsiyyət kimi yetişməsində ailə başlıca rol oynayır. Gənc nəslin tərbiyəsi ailənin başlıca funksiyalarından, valideynlərin isə ən mühüm vəzifələrindən biridir. Ailə münasibətləri hər şeydən əvvəl uşaqların emosiya və hisslərinə təsir göstərir. Onların yaşı artdıqca həmin münasibətləri mənimsəyirlər, bu zəmində də oğlan və qızların xarakter əlamətləri və s. formalaşır.

Konvensiyada nəzərdə tutulmuş ən əsas hüquqlardan biri hər bir uşağın təhsil almaq hüququdur (6, 7). Dövlətin vəzifəsi pulsuz və icbari ibtidai təhsili təmin etməkdir. Uşağın təhsili aşağıdakı məqsədlərə yönləndirilməlidir:

— Uşaq şəxsiyyətinin, istedadının, əqli və fiziki bacarığının tam həcmdə inkişaf etdirilməsinə;

— Uşaq hüquqlarına və azadlıqlarına hörmət tərbiyə olunmasına;

— Uşağın valideyninə, dilinə, ölkəsinə və milli dəyərlərinə hörmət tərbiyə edilməsinə;

— Uşağın azad cəmiyyətdə sülh, anlaşmaq, dözümlülük, kişilərlə qadınların hüquq bərabərliyi və bütün xalqlar, etnik, milli, dini qruplar arasında dostluq ruhunda şüurlu həyata hazırlanmasına;

— Ətraf mühitə hörmət tərbiyə edilməsinə.

Təhsil uşağı cəmiyyətin azad, fəal üzvi kimi hazırlamalı, valideynlərinə, yaxınlarına, xalqına, mədəni sərvətinə, dilinə, dəyərlərinə, həmçinin başqalarının da adət-ənənə və dəyərlərinə hörmət tərbiyə etməlidir.

İnsan hüquqlarının öyrədilməsi sahəsində məktəblilərin və müəllimlərin üzərinə böyük məsuliyyət düşür. Çünki məktəblilərə öz hüquq və vəzifələrini başa salmaq bir o qədər asan deyil. Xüsusilə şəxsiyyətyönlü təhsildə uşaqların hüquq və azadlıqlarının təmin olunması və onlara əməl olunması çox vacib məsələlərdəndir.

Şəxsiyyətyönlü təhsildə uşaq hüquqlarının əsas məqsədi onların biliklərə yiyələnməklə yanaşı həmçinin bir şəxsiyyət və vətəndaş kimi formalaşdırmaqdan ibarətdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 22 dekabr 2008-ci il tarixli 103 nömrəli Sərəncamı ilə 2009-cu ilin "Uşaq ili" elan edilməsi uşaqların vəziyyətinin yaxşılaşdırılması, Uşaq Hüquqlarının müdafiəsinin gücləndirilməsi baxımından yeni bir mərhələ açdı. 2009-cu ilin "Uşaq ili" elan edilməsi ilə bağlı tədbirlər planının təsdiq edilməsi isə uşaq hüquqları sahəsində təhsil, bu sahədə müvafiq dərs vəsaitlərinin hazırlanması, xüsusi qayğıya ehtiyacı olan uşaqların vəziyyətinin yaxşılaşdırılması ilə bağlı tədbirlərin də həyata keçirilməsi üçün müvafiq dövlət qurumları qarşısında vəzifələr müəyyən etdi. Bu sahədə aparılan işlərdən danışarkən Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın fəaliyyətini xüsusi olaraq vurğulamaq lazımdır. Məhz Mehriban xanımın rəhbərliyi altında Heydər Əliyev Fondu uşaqların təhsili, sağlamlığı ilə bağlı iri layihələrə imza atmışdır. Bu gün hər bir uşaq öz üzərində dövlət qayğısını hiss edir. Uşaqlara göstərilən diqqət və qayğının artırılması üçün cəmiyyətin hər bir üzvü bütün gücünü səfərbər etməlidir. 14 Uşaq Hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu Bu Qanun Azərbaycan Respublikasının Konstitusiyasına, Uşaq Hüquqları Bəyannaməsinə, Uşaq Hüquqlarına dair Konvensiyaya və digər beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikasında uşaqların hüquqlarını və azadlıqlarını, uşaqlar barəsində dövlət siyasətinin

əsas prinsiplərini, onların müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edir.

**Məqalənin aktuallığı.** Müasir şəxsiyyətyönlü təhsil təhsil alanların imkan və tələblərini nəzər alaraq onlara hörmətlə yanaşmağı tələb edir. Hər bir pedaqoqun Uşaq Hüquqlarının müddəaları ilə tanış olması və əməli fəaliyyətlərində onlara istinad etməsi bugünkü təhsilin aktual problemlərindən biridir.

**Məqalənin elmi yeniliyi.** Uşaqların hüquq və azadlıqlarının təhsil sistemində nəzərə alınmasının elmi-pedaqoji əsaslarının işlənilməsi məqalənin elmi yeniliyini şərtləndirir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqat işində əldə olunan nəticələr təhsil sahəsində çalışanlar, bakalavr və magistrlər elmi-pedaqoji fəaliyyətdə yararlana bilərlər.

## Ədəbiyyat

1. "Təhsil Haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı, 2017.
2. Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı. Bakı: Çaşıoğlu, 1999.
3. F.N.İbrahimov. Pedaqoji anlayışların interpretasiyası "sistem-struktur" rakursda. Bakı, 2016.
4. İ.H.Cəbrayılov. Şəxsiyyətyönümlü təhsil və vətəndaş cəmiyyəti. Bakı, 2011.
5. Ə.Ə. Ağayev. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006.
6. Uşaq hüquqları haqqında Azərbaycan Respublikası Qanunu. Bakı, 1998.
7. Ə. Abbasov. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri. Bakı, 2018.

**С. Мурадова**

## Место изучение детских прав в с современном личностьнонаправленном образовании

## Резюме

Современная личностьнонаправленная образования в первую очередь требует с уважением относиться образование получателям, учитывать их требований и предложений, получение образование в развивающем образовательном среды. Поэтому каждая образовательная учреждения должен изучат детские права и реализовать их в учебном процессе.

**S. Muradova**

## The place of teaching children right in person-oriented education

## Summary

Modern person-oriented education requires respectable approach towards pupils, taking into consideration their offers and requirements, educating them in the atmosphere of joy and development. İt requires from educators to learn the children right deeply and use them in their activity.